# Elm və təhsil fədaisi və ya 70 yaşın hekayəti

Yədulla müəllimi 12 yaşından tanıyıram. Təbiidir ki, onda hələ müəllim deyildi. 4 monoqrafiyası, 1 dərsliyi, 2 dərs vəsaiti, 11 fənn proqramı və metodik göstərişi, 80-dən artıq elm, çoxsaylı ədəbi-tənqidi məqalələri də yox idi. Əsərləri də Rusuya, Türkiyə, Ukrayna, Qazaxıstan,Özbəkistanda çap olunmamışdı.Yazıçılar Birliyinin də üzvü deyildi. Bunlar nə vaxtsa, çox-çox sonralar olacaqdı...

12 yaşlı Yədullanın yaxşı zehni, dərin müşahidəsi, güclü təhlil qabiliyyəti, saf, təmiz ürəyi, səmimi dostluğu və bir də qeyri-adi zəhmətsevərliyi var idi...

Sən demə, gələcək uğurların bünövrəsi 12 yaşdan qoyulmaqda imiş. Kamil insan, gözəl alim, hamının sevgisini qazanacaq müəllim olmaq üçün çox şey tələb olunmurmuş...

Bir də qeyri-adi təvəzökarlığı var idi Yədulla müəllimin - az-az adamlarda özünü büruzə verən təvəzökarlığı.

Həyat həmişə üzünə gülməyib. Taleyin zərbələrinə mərdliklə dözmək qabiliyyəti də güclüdür onda. Fikirləşir ki, dözməyib nə edəcək ki? Don Kixot olub yel dəyirmanı ilə döyüşən deyil ki...İnsan öz gücünü, qüvvəsini qiymətləndirməyi bacarmalıdır. Uğuru şərtləndirən ən mühüm cəhətlərdən biri də budur. İşıqfor həmişə yaşıl işıq göstərmir ki( əgər göstərirsə, deməli onun ritmini, iş rejimini pozan, ona kənardan müdaxilə edən var).Yədulla müəllim belə incəlikləri bilməmiş deyil.

Bəlkə də görkəmli ictimai-siyasi xadim olacaqdı. Mən mane oldum( mərdimazarı axtarmaqla deyil). Səhv etmirəmsə, şəhər sovetinin deputatlığ etmək fikrinə düşmüşdü. Fəxrlə danışırdı. Sir-sifətimi elə turşutdum ki...Dedim, qardaş , ağlını başına yığ, at getsin. Elmlə məşğul ol. Sənin güclü elmi potensialın, elmi təfəkkürün var. Bu sahədə böyük uğur qazana bilərsən. Daha nə dedim, yadımda deyil. Bircə onu bilirəm ki, inandıra bildim. Bir də gözlərini açdım ki, elmlər namizədidir. Sonra elmlər doktoru oldu, sonra professor.Bütün uğurlarının sevincini ilk dəfə mənimlə bölüşürdü Yədulla müəllim. İndinin özündə də. Bəlkə də, görkəmli bir ictimai-siyasi xadimi, məmuru itirdik. Amma gözəl bir tədqiqatçı, folklorşünas-ədəbiyyatçı, ali məktəb müəllimi qazandıq.Yədulla müəllimi bilmirəm, mənim ürəyimdən oldu.

Orta məktəbdə ikimizin də bir sevimli dil-ədəbiyyat müəllimimiz var idi - Mirhaşım Talışlı - müəllim, şair, tədqiqatçı-alim, bənzərsiz insan. Peyğəmbər kimi adam idi. Mən Lənkəranda olanda Yədulla müəllimlə birlikdə gedib ona baş çəkərdik. Saatlarla çəkən şirin söhbətlərimiz olub. İkimizi də çox istəyirdi Mirhaşım müəllim. Mənə elə gəlir ki, məni daha çox istəyirdi( Yədulla müəllim, yəqin, inciməz. Axı məni az-az görürdü). Bu, mənim şəxsi qənaətimdir. Bəlkə yanılırdım. Mən 5-ci sinifdə oxuyanda Mirhaşım müəllim mənə bir kitab bağışlamışdı - öz xətti, öz imzası ilə : " Mərifətli şagirdim Mahmudov Məsuda yadigar Talışlı Mirhaşımdan - 20.03. 1962 . Orada onun 1956-cı ildə yazdığı şeirdən də bir bənd verilmişdi: "Kitabda olur müşkülün çarəsi, Kitabla sağalmış könül yarəsi. Bütün gözlərin ağı, həm qarəsi, Kitabdır, kitabdır, kitabdır, kitab"- M. Talışlı(07.05.1956). İnanın, illər keçdi, yataqxana həyatı keçirtdim, çox evlərdə yaşadım. orduda Macarıstanda oldum, aspiranturada Leninqradda( Sankt-Peterburqda) oxudum - hər yerdə, həmişə o kitab mənimlə oldu. İndi də bu sətirləri yazanda stolumun üstündədir- sevimli müəllimimin əziz yadigarı kimi.

Allah rəhmət eləsin! Bir dəfə demişdim Mirhaşım müəllimə bu barədə. Sonralar Yədulla müəllim Mirhaşım Talışlı haqqında bir kitab yazdı: " Tarixləşən, əbədiləşən ustad". Mən də həmin kitabın rəyçisi oldum. Yədulla müəllim çox səmimi arzularla, ürək sözləri ilə həmin kitabı mənə təqdim etdi: " Əziz qardaşım, uğurlarına həmişə sevindiyim, əsl insan və bənzərsiz alim Məsud Mahmudova ən xoş arzularla Yədulladan" Elə belə, sadəcə, Yədulladan - titulsuz, bər-bəzəksiz, mənim uşaqlıqdan tanıdığım Yədulladan... Bu kitabı da ən sevimli kitablarımın olduğu rəfə qoymuşam. Yədulla müəllim, məndən inciməyin. Yubiley, 70 yaş mənim ağlıma sığmır. Mənim yaddaşımda Siz 12 yaşlı, təmkinli. tərbiyəli. çalışqan, balaca Yədulla kimi qalmısınız. 70 yaşlı Yədulla müəllim mənlik deyil. Sadəcə, ailə üzvlərinizə, qohumlarınıza, dostlarınıza, tələbələrinizə qoşulub mən də Sizi - filologiya elmləri doktoru, professor Yədulla Ağazadəni doğum günü münasibəti ilə ürəkdən təbrik edir, cansağlığı, xoş günlər və daha böyük uğurlar arzulayıram!

Var olun! Sağ olun! P.S. Uzaqdan, lap uzaqlardan, məktəb həyətindən boynu qırmızı qalstuklu, təmkinli, sakit bir uşaq bizə baxır. Ona elə gəlir ki, biz məktəbin dram dərnəyində Vasili Çiçikovun " Havanalı uşaqlar" pyesinin məşqindəyik( mən Luis rolunda). Birazdan məktəb orkestri unudulmaz Firudin müəllimin dirijorlğu ilə Səid Rüstəmovun

" Süreyya" mahnısını marş kimi ifa edəcək:

"Qol çırmayıb sən tarlaya çıxanda,

Səs yayılır hər mahala, Sürəyya.

Ağ pambığı becərəndə , yığanda, Gəlməyəsən heç zavala, Sürəyya!" Ətraf həyətlərdən, bütün şəhərdən axışıb bizim orkestrə

Kredo 2020.- 2 iyul.- S.15.